I fəsil

# *Amma*

I

Amma

şəhəri iki yerə bölən su yolunun yanındakı səki boyunca gəzir, sübh çağı yola çıxan katerlər asta-asta yaxınlıqdan üzüb keçir

solunda göyərtəyə bənzər dəniz rəngli körpü uzanır, piyada cığırı göyərtəyə, dirəkləri yelkənə bənzəyir

sağında isə çayın Vaterloo körpüsünün şərqindən keçərək Müqəddəs Paul kilsəsinin günbəzinə doğru uzanan qovşağı var

günəşin oyandığını hiss edir, bürkünün və dumanın cənginə almadığı şəhərin havası hələ təravətlidir

skripkaçı o ana uyğun, səkinin ruhunu oyadan musiqi çalır

Ammanın *"Dahomeyin sonuncu Amazonu"* pyesi bu gecə Milli Teatrda oynanılacaq

*

1

teatrdakı ilk günlərini xatırlayır

həmin vaxtlar o və həmkarı Dominik tamaşaçıların siyasi həssaslıqlarını alçaldan şouları hədəf alaraq şöhrət qazanmaqda idilər

arxa sıralardan yaxşı təlim görmüş gur səslər eşidilməyə başlanan kimi onlar sürətlə səhnəni tərk edirdilər

ictimai, dağıdıcı və qarşı tərəfi qıcıqlandıran etirazların gücünə inanırdılar

səhnədə dəli-dəli hərəkət edən yarıçılpaq qaradərili qadınların tamaşasına quruluş verən rejissorun başına bir bakal pivə tökdüyünü xatırlayır

ulayaraq

Hammersmitin arxa küçələrinə üz tutmazdan qabaq

onu qəbul etməyən və quruluşa əl bombası atdığını düşünən mürtəd sistemin ucbatından Amma daha sonrakı on ilini teatrdan kənarda keçirdi

bu, əsas axının bir vaxtlar radikal hesab olunanı həzm etdiyi vaxta qədər uzandı və Amma bir də gözünü onda açdı ki, ümid içində yeni axına qoşulub

əslində bu o vaxt baş verdi ki, üç il əvvəl Milli Teatra ilk dəfə bir qadın bədii rəhbər təyin olundu

onun sələflərindən uzun müddət çoxsaylı nəzakətli "yox" cavabları aldıqdan sonra həyatı sadəcə onlayn televiziya dramlarından ibarət boş bir şeyə çevrildiyi bir vaxtda bazar ertəsi səhər yeməyindən dərhal sonra telefonuna zəng gəldi

ssenarini bəyəndim, mütləq çəkilməlidir, bizim üçün də rejissorluq etməzsiniz ki? bilirəm ki, bir az qəfil oldu, ancaq bu həftə qəhvə içməyə vaxtınız varmı?

Amma qarşısında yüksələn nəhəng boz binaya çatanda, onu tez ayıltsın deyə, kifayət qədər tünd amerikanodan bir qurtum alır

bunkeri xatırladan bu beton tikilini yaxın günlərdə, axır ki, neon işıqlarla canlandırmağa çalışmışdılar, bina ənənəvi yerdən daha çox tərəqqiyə meyilli məkan kimi tanınırdı

illər əvvəl düşünürdü ki, əgər bu qapılardan içəri girməyə cəsarət etsə, onu buraxmayacaqlar, həmin illər insanların teatra getmək üçün həqiqətən də ən qəşəng paltarlarını geyindikləri vaxtlar idi

uyğun geyimdə olmayan insanlara burun sallanan vaxt idi

istəyirdi ki, insanlar onun pyeslərinə sadəcə xüsusi bir həvəslə gəlsinlər, onların nə geyindiyi qətiyyən vecinə deyildi, onun adi cins kombinezondan, Çe Qevara beretindən, ərəbsayağı şərfdən və üzərinə iç-içə keçən iki qadın simvolu həkk olunmuş nişandan ibarət *özünəməxsus* tərzi var idi. (Qəlbini qoluna taxmaq haqqında danış, qızım.)[1]

son illərdə qış aylarında qızılı, yaxud gümüşü idman ayaqqabıları geyinir, yay fəslində isə səndəl

qışda həmin həftə ölçüsünün on iki, yaxud on dörd olmasından asılı olaraq (yuxarı qismi kiçik ölçülü) dar, yaxud gen qara şalvar

yayda dizin aşağısında bitən genbalaq şalvar

qışda parlaq rəngli assimetrik köynəklər, cemperlər, jaketlər və gödəkçələr

il boyu isə doğum günü tortunun üzərinə qoyulmuş şamlara bənzəyən, peroksiddən istifadə edərək burduğu Afrika tərzli saçlarla gəzir

gümüş halqa sırğalar, yoğun Afrika tərzli bilərzik və çəhrayı dodaq boyası

onun əbədi imza çəkdiyi tərzi idi

Yazz

bu yaxınlarda onu geyim tərzinə görə "dəlisov, qarı görünüşlü ana" adlandırmışdı, qız digər normal analar kimi Marks&Spen-

[1] Qəlbini qoluna taxmaq – əgər geyim tərzi belə adlandırılırsa, mənası hissləri gizlətməkdənsə, rahatlıqla ifadə edə bilən geyim geyinməkdir (tərc. qeydi)

ser-dən alış-veriş etmək üçün Ammaya yalvarır, küçədə birlikdə gedərkən isə özünü elə aparırdı ki, guya heç onu tanımır

Yazz dəqiq bilirdi ki, Amma hər kəs ola bilər, bircə normaldan başqa, üstəlik onun əlli yaşı var, heç qoca da sayılmır, ancaq qocalıqdan utanmaq lazım olmadığını on doqquz yaşlı yeniyetməyə başa salmağa çalış görək

xüsusən də bütün insanlığın birlikdə üzləşdiyi bir şey olduğunu nəzərə alsaq

baxmayaraq ki, bəzən belə təəssürat yaranırdı ki, o, dostlarının arasında qocalığını şadyanalığa çevirmək istəyən yeganə adam idi

çünki Brikstondakı evinin çox rahat eyvanındakı mətbəx masasının ətrafında gecələr yığışanda dostlarına deyirdi ki, vaxtından qabaq ölməmək də bir imtiyazdır

bu o vaxt olurdu ki, dostlarının hərəsinin gətirdiyi güvəcdə noxudu, qaxaclanmış çolpanı, yunan salatını, souslu mərciməyi, qızardılmış tərəvəzləri, Mərakeş ədviyyatlı quzu ətini, zəfəranlı düyünü, çuğundurlu və kələmli salatı və qlütensiz makaronu yeməyə girişib, şərabdan, aşağı kalorili araqdan, yaxud da həkimin icazə verdiyi daha yüngül içkilərdən içərək söhbət edirdilər.

gözləyir ki, dostları onun orta yaşla bağlı şikayətlərə qoşulmamasını təqdir etsinlər, əvəzində isə ona təəccüb dolu təbəssümlərlə cavab verir, artrit ağrıları, yaddaş itkisi və menopauzanın səbəb olduğu isti basmalar haqqında soruşurlar

Amma gənc küçə sənətçisinin yanından keçir

o, qıza baxıb cəsarətlə gülümsəyir, qız da ona eyni mehribanlıqla cavab verir sonra skripka çantasına bir neçə xırda pul atır

siqaretdən imtina etməyə hazır olmadığı üçün çay kənarındakı divara söykənir, birini yandırır və buna görə özünə nifrət edir

reklamlar deyirdi ki, siqaret onların nəslini daha yetkin, güclü, məftunedici, ağıllı, arzuolunan və ən əsası soyuqqanlı biri kimi göstərəcək

heç kim demədi ki, əslində siqaret onları öldürəcək

çaya baxır, isti siqaret dumanı nəfəs borusundan keçib əsəblərini sakitləşdirir, bir tərəfdən də kofeinin səbəb olduğu adrenalin seli ilə mübarizə apardığını hiss edir

qırx ildir ki, premyaları olur, ancaq hələ də qorxudan əsir

bəs əgər tənqidçilər onu sərt tənqid etsələr necə? bir ulduzlu resenziyaya görə səs çoxluğu ilə uzaqlaşdırılsa, Milli Teatr bu kələkbazı içəri buraxarkən nə düşünürdü desələr necə?

əlbəttə, o bilir ki, kələkbaz deyil, on beşə yaxın pyes yazmış, qırxdan çoxuna rejissorluq etmişdi və bir tənqidçinin də yazdığı kimi Amma Bonsu risk etməyi çox yaxşı bacaran və səhvə yol verməyən biridir

bəs əgər ön cərgədə əyləşən və dayanmadan alqışlayan tamaşaçılar sadəcə mərhəmətlidirsə necə?

ah, kəs səsini Amma, sən qoca qurdsan, yadından çıxıb?

baxın

onun fantastik heyəti var: altı nəfər yaşlı aktrisa (dünyanın hər üzünü görmüş), altı nəfər ortayaşlı (uzun illər sağ qalan) və üç yeni sima (sadəlövhcəsinə ümidlə doludurlar), içlərindən biri, Simon adlı istedadlı aktrisa bütün məşqlərdə qızarmış gözlərlə dolaşar, gah ütünü çəkməyi unudardı, gah sobanın altını söndürməyi, gah da yataq otağının pəncərəsini bağlamağı, dəyərli məşq vaxtını təlaş içində qonşularına zəng etməklə xərcləyirdi

bir neçə ay əvvəl bu işə girmək üçün nənəsini qul bazarında satardı, hal-hazırda isə özünü lap ərköyün primadonna kimi aparır, bir neçə həftə əvvəl isə rejissorla məşq otağında sadəcə ikisi qaldığı zaman ona karamelli latte gətirməsi üçün tapşırıq verib

Simon gün boyu mən artıq bezmişəm deyərək zarıyırdı, özünü elə aparırdı ki, sanki bu qədər işləməyə onu Amma təhrik edir

yəqin  deməyə ehtiyac yoxdur ki, həmin vaxt o balaca xanım Simon Stivensona həddini bildirməklə məşğul olur

bu o xanımdır ki, dram məktəbindən birbaşa Milli Teatra gəldiyi üçün Hollivudun bir addımlığında olduğunu düşünür

öyrənəcək, əlbəttə

az qalır

belə vaxtlarda Amma uzun müddət əvvəl Amerikaya qaçan Dominik üçün darıxırdı

onlar Ammanın karyerasının nəfəs kəsən anlarının sevincini birlikdə yaşaya bilərdilər

səksəninci illərdə qadın həbsxanasında (başqa harada olmalı idi ki?) çəkilən bir filmin dinləmələrində tanış olmuşdular

hər ikisi də qul, xidmətçi, fahişə, dayə rolları təklifindən cana-boğaza yığılmışdılar

ancaq hələ də iş tapa bilməmişdilər

Soho küçəsində ucuz bir kafedə iki dilim yapışqan ağ çörəyin arasına dürtülmüş qayğanaqlı donuz əti yeyib, tünd çay içə-içə, gözlərinin ucu ilə küçədəki fahişələri izləyə-izləyə talelərinə üsyan edirdilər

bu, Soho müasir gey koloniyasına çevrilməmişdən qabaq idi

bir mənə bax görüm,  Dominik dedi, Amma da onun dediyini etdi, bu onun itaətkar, ya günahkar olmağı ilə bağlı bir şey deyildi

o həddindən artıq təmkinli və çox ecazkar idi, əksər qadınlardan uca, əksər qadınlardan da incə idi, kəskin almacıq sümükləri, üzünə sanki kölgə salan qara kirpikli, xumar baxışlı biri idi

dəri geyinərdi, yanpörtü atdığı kəkillər xaric saçlarını həmişə qısa kəsdirər, qəsəbədə bayırda zəncirlədiyi köhnə bir qəssab velosipedi ilə gəzərdi

onlar mənim yaşayan ilahə olduğumu görmürlər? Dominik kəkilini bir tərədən digər tərəfə ataraq təmtəraqlı bir jestlə bağırmış, bütün başlar ona sarı çevrilmişdi

Afrika ombalı Amma daha qısaboylu idi

azadlıq hərəkatı ilə bağlı bir pyesin sınaq çəkilişinə gedəndə rejissor ondan mükəmməl qul qız çıxacağını demişdi

bu sözdən sonra Amma oranı dərhal tərk etmişdi

Dominikə isə kastinq rejissoru Viktoriya dövrünə aid dramın aktyor seçimində vaxtını boş yerə itirdiyini, həmin vaxt Britaniyada qaradərililər olmadığını demişdi

Dominik cavabında qaradərililərin olduğunu söyləmiş, otaqdan çıxmazdan əvvəl rejissora cahil deməyi də unutmamışdı

bir də qapını möhkəm çırpmağı

Amma hesab edirdi ki, Dominikin timsalında dünyaya birgə meydan oxuya biləcək bir dostun ruhunu tapıb

xəbərlər yayılanda ikisi də işsiz olacaqdılar

yerli bir pivəxanaya gedib söhbətlərinə davam etmiş, şərab isə dayanmadan süzülmüşdü

Dominik Bristolda Müqəddəs Paul adlanan yerdə doğulmuşdu, anası Sesiliya nəsli quldarlıq dövrünə qədər gedib çıxan afro-qayanalı, atası Vintley isə ulu babaları Kəlküttə şəhərindəki müqaviləli işçilərdən olan hind-qayanalı idi

asiyalıdan daha çox qaradərililərə oxşayan və özlərini belə təqdim edən on uşağın ən böyüyü idi, ataları bir yerdə böyüdüyü afro-karibli adamlarla daha çox əlaqəli idi, nəinki Hindistandan yeni gələn hindlilərlə

Dominik yetkinlik çağından öz cinsi oriyentasiyasını təxmin etmiş, lakin bu təxminlərini məharətlə qırx qapı arxasında gizlətmiş, ailəsinin və dostlarının necə reaksiya verəcəyini təxmin edə bilmədiyi üçün cəmiyyətdən təcrid olunmaq istəməmişdi

o bir neçə dəfə oğlanlarla sınaqdan keçirmişdi

partnyorlarının xoşuna gəlmişdi

o isə sadəcə tab gətirmişdi

on altı yaşı olanda aktrisa olmaq həvəsi ilə insanların şəxsiyyət vəsiqələrini döş ciblərində qürurla daşıdığı Londona üz tutdu

Temza  bəndinin tağlarında və sahilboyu düzülən mağazaların qarşısında gecələdi, qaradərililərin sığınacaq assosiasiyası tərəfindən müsahibəyə çağırıldı və guya atasının onu döydüyünü danışaraq ağladı

yamaykalı məmur elə də təsirlənmədi, deməli, döyülürdünüz, eləmi?

Dominik şikayətini dəyişdirərək atasının cinsi istismarına məruz qaldığını bildirdi, yataqxanada ona təcili olaraq otaq verildi, sığınacağa on səkkiz ay boyunca hər həftə gözyaşları ilə müşayiət olunan zənglərindən sonra Blumzbridə əllinci illərdən qalmış kiçik bir blokda bir otaqlı mənzilə yerləşdirildi

sonralar Ammaya demişdi ki, ev tapmaq üçün nə etmək lazım idisə etdim, düzdür, o an mükəmməl insan deyildim, qəbul edirəm, ancaq heç kim ziyan çəkmədi, atam da bunu heç vaxt bilməyəcək

qaradərililərin tarixi, mədəniyyəti, siyasəti və feminizmlə bağlı təkmilləşmək üçün bir yola çıxıb Londonun alternativ kitab evlərini kəşf etmişdi

İslinqtondakı "Qələm bacılar" mağazasına girdi, buradakı bütün kitabları qadınlar yazmışdı, onları saatlarla vərəqlədi, çünki almağa pulu yox idi, *"Ev qızları: qaradərililərin feminist antologiyası"* kitabını, demək olar ki, hər həftə ayaq üstə oxuyub bitirmişdi, Audre Lordenin əlinə keçən bütün kitablarını da

kitab satıcısı bu vəziyyətdən narazı qalmırdı

ortodoksal dram məktəbinə qəbul ediləndə mən artıq siyasətlə məşğul olurdum və bütün məsələlərdə onlardan üstün idim, Amma

bütün məktəbdə rəngi fərqli yeganə adam

o, Şekspirin pyeslərində kişi rollarının niyə qadınlar tərəfindən ifa edilmədiyini soruşmuş, rolları bölüşdürən kursun rejissorunun

üstünə hələ irqi ayrı-seçkiliyi demirəm sözləri ilə qışqırmış, qız tələbələr də daxil olmaqla, hər kəs susub dinləmişdi

dərk etdim ki, bu yolda təkəm

*

növbəti gün məktəb direktoru məni bir kənara çəkdi

sən bura aktrisa olmaq üçün gəlmisən, siyasətçi olmaq üçün yox

əgər problem yaratmağa davam etsən, buranı tərk etməli olacaqsan

səni xəbərdar edirəm, Dominik

bunları mənə deyirsən, Amma cavab vermişdi, ya sus ya da çıx get, düzdür?

mən öz mübariz ruhumu atamdan, Qananın müstəqilliyi uğrunda döyüşən jurnalist Kvabenadan almışam

qiyama çağırışa görə həbs ediləcəyini eşidəndə tez bura köçüb və dəmir yolunda işləməyə başlayıb, anamla isə London körpüsü stansiyasında rastlaşıb

o, bilet nəzarətçisi imiş, anam isə ictimai zalın üstündəki ofisdə işləyirmiş

ayaq üstə bir-iki kəlmə kəsə bilsinlər deyə, atam cidd-cəhdlə anamın biletini yoxlamağa, anam isə qatarı sonuncu tərk etməyə çalışıb

Anam Helen metisdir, 1935-ci ildə Şotlandiyada doğulub

onun atası Aberden Universitetində təhsilini bitirən kimi aradan çıxan nigeriyalı tələbə imiş

heç kimlə vidalaşmayıb

illər sonra anası başa düşüb ki, o Nigeriyadakı ailəsinin və uşaqlarının yanına qayıdıb

qadın onun ailəsi və uşaqlarının olduğunu heç bilmirmiş

otuzuncu və qırxıncı illərdə anam Aberdendə yeganə metis deyilmiş, amma bələləri o qədər az olub ki, anam bunu rahat hiss edib

o, məktəbi erkən atıb katiblik kollecinə girmiş, daha sonra isə Londona üz tutmuşdu, şəhər elə həmin illərdə işləməyə və oxumağa gələn afrikalı kişilərlə dolub daşmışdanam orada rəqslərə və Soho klublarına gedirdi, kişilər onun açıqrəngli dərisini və ipək saçlarını sevərmişlər

afrikalı kişilər ona əksini deyənə qədər özünü çirkin zənn edərmiş

həmin vaxt onun nəyə oxşadığını görməli idin

Lena Horne ilə Doroti Dandricin sintezi demək olardı

anam ümid edirdi ki, ilk görüşlərində onlar filmə baxacaqlar, sonra da sevimli məkanı Sohonun düz yanındakı Afrika klubuna gedəcəklər, buna bir neçə dəfə eyham da vurmuşdu, Qərbi Afrika cazı ilə rəqs etməyi sevdiyini dəfələrlə dilinə dolamışdı

atam isə onu Fil və Qala adlı pivəxananın arxa otağındakı sosialist iclasına aparmışdı

bir qrup kişi orada pivə içə-içə müstəqillik siyasətindən bəhs edirmişlər

anam da orada əyləşib özünü sanki məsələ ona maraqlı imiş və atamın intellektindən təsirlənibmiş kimi göstərməyə çalışırmış

əgər məndən soruşsanız, məncə, atam anamın susqun itaətkarlığından təsirlənib

onlar evlənib Pekhama köçüblər

mən onların sonuncu uşağı, birinci qızları idim, Amma otaqda getdikcə sıxlaşan siqaret dumanına öz əlavəsini edərkən demişdi

mənim üç böyük qardaşımdan ikisi vəkil, biri hakim oldu, atamızın ümidlərini tamamilə doğrultduqları üçün mənə təzyiq edilmədi